# ELMİ SEVƏN ŞEYX HAQQINDA

*Azərbaycan Respublikasının ilk şeyxülislamı Ağa Əlizadənin 155 illiyi münasibətilə*

***Azərbaycan cəmiyyəti Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri şeyxülislam Axund Ağa Cavad oğlu Əlizadəyə rəsmi olaraq iki dəfə xüsusi etibar nümayiş etdirib: Azərbaycan Xalq Cümhuriyyəti dövründə o, Zaqafqaziya müsəlmanlarının ruhani lideri seçildikdə və 1944-cü ildə Stalin SSRİ ərazisində dini ibadət məkanlarının açılması barədə göstəriş verdikdə.***



Hər iki halda o, dini fəaliyyətini ictimai hadisələrlə sıx surətdə əlaqələndirib. Onun dəfni günü sovet qəzeti «İzvestiya»da dərc olunmuş nekroloqda qeyd edilirdi: «Şeyxülislam Əlizadə Bağdadda təhsil almış şiə təriqətli qocaman müsəlman xadim olmuşdur. Dini fəaliyyətlə 1896-cı ildən məşğul olmağa başlamışdır. Şeyxülislam Əlizadə sülh tərəfdaşları ümumittifaq konfransının, SSRİ-də sülhə həsr olunmuş bütün kilsələr və dini təşkilatların konfranslarının iştirakçısı, eləcə də 1952-ci ildə Vyanada xalqların sülhü müdafiə üzrə konqresinin nümayəndəsi olmuş və Sovet İttifaqının müsəlmanları adından nitq ilə çıxış etmişdir».

Qeyri—rəsmi olaraq isə şeyxülislam Axund Ağa Əlizadəyə inanclı əhali tərəfindən hər zaman ehtiyac hiss olunmuş və onun keçmiş Nijne—Priyutsk (indiki Bəşir Səfəroğlu) küçəsindəki evinin qapıları onların üzünə həmişə açıq olmuşdur. Əfsus ki, bu dini lider haqqında indiki nəslə heç bir şey məlum deyil, onun soyadı Azərbaycan ensiklopediyalarında yer almır. Şeyxin böyük nəvəsi, İncəsənət muzeyinin əməkdaşı, qocaman Azərbaycan fotoqrafı Kamal Babayevin, digər qohumlar və şeyxi tanıyanların söhbətləri əsasında Respublikamızın tanınmış jurnalisti Frəngiz Xancanbəyova ilə rus dilində yazılan ana dilimizə tərcümə olunan bu məqalə Azərbaycan ruhaniliyinin ən yaxşı və savadlı nümayəndələrindən biri haqqında xatirəni yaşatmağa cəhddir.

### YOLUN BAŞLANĞICI

Şeyxülislam Ağa Əlizadə 1871-ci ildə Pirşağıda öz dövrünün tanınmış din xadimi axund Hacı Məmməd Cavad Əlizadə və Bibixanımın ailəsində dünyaya göz açmışdır. Onların dörd oğlu və iki qızı olmuşdur. O, uşaqlarının təhsilini davam etdirmək məqsədilə Bakıda özü və ailəsi üçün Nijne—Priyutsk küçəsində tikdirdiyi evə köçür.

Axund Hacı Məmməd Cavad əvvəlcə Zeynalabdinə (uşaqlıqda Ağa Əlizadəni belə çağırırdılar) ərəb, fars dillərini, şəriəti öyrətmiş, sonra isə İçəri şəhərdəki Sınıqqala məscidinə təhsil almağa göndərmişdir. Zeynalabdin burada ədəbiyyatı, astronomiyanı, tarixi, riyaziyyatı, botanikanı mükəmməl öyrənmiş, sonra isə müəllim və şair Mirzə Nəsib Qüdsinin yanında təhsilini davam etdirmişdir. Həyatının bu dövründə onda artıq Quran ayələrini tərcümə etmək tələbatı oyanır. Bununla yanaşı, o, böyük şair və mütəfəkkir Sədinin fəlsəfəsini, tibbi öyrənməyə böyük maraq göstərərir, öz dini və intellektual potensialını artıq bu yaş dövründə nümayiş etdirir. Bu dövrdə Almaniyada təhsil alan, bir neçə Avropa dilini bilən, Azərbaycanın peşəkar həkimlərindən olan dayısı Mirzə Xaliqin də bəlkə təsiri olmuşdur. Zeynalabdini tibbin əsasları ilə tanış edən də məhz dayısı olub.

Mirzə Xaliq olduqca səxavətli insan idi: yoxsul və imkansızları nəinki təmənnasız müalicə edirdi, hətta onları şəxsi əczaxanasından dərmanlarla təmin edirdi. 1901-ci ildə o, müsəlman xeyriyyə cəmiyyətinin təsisçilərindən olmuşdur. Zeynalabdin hələ uşaq yaşlarından dayısına bağlanmış və onu çox sevmişdir. XIX əsrin 90-cı illərinin əvvəllərində Zeynalabdin atasının xeyir—duasını alaraq dini təhsil almaq üçün İraqa, Bağdadın yaxınlığındakı müqəddəs Nəcəf şəhərinə yola düşür. İlahiyyat fakültəsində təhsil almaqla yanaşı, orada yaşayan din xadimləri ilə də münasibətdə olur.

Universiteti bitirdikdən sonra o, axund rütbəsi alır və vətənə qayıtdıqdan sonra — 1896-cı ildə indiki Təzəpir məscidinin yerində yerləşən pirin nəzdindəki məscidə kiçik molla kimi təyinat alır. Təzəpirin təmirindən sonra axund Əbu Səlim Axundzadənin tövsiyəsi ilə Əlizadə məscidin əsas din xadimi təyin olunur. 1918-ci ildə müsavatçılar hakimiyyətə gəldikdən sonra axund Ağa Əlizadə şəhər qazisi (hakim) seçilir, Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri seçilərək şeyxülislam dərəcəsinə yüksəlir.

ADR—nın birinci ildönümündə o, çıxış edərək nitqində qeyd edir ki, hər bir xalqa, hər bir insana müstəqillik və ədalət lazımdır. 1919-cu il sentyabrın 15-də şeyxülislam Əlizadə Dağüstü parkda M.Ə.Rəsulzadə başda olmaqla hökumət nümayəndələrinin iştirak etdiyi yığıncaqda şəhidlərə həsr olunmuş matəm mərasimini Qurani-kərimin «Yasin» surəsini tilavət etməklə açır.

ADR dövründə şeyx Əlizadə orduda xidmət etməkdən yayınan və bu işdə valideynlərindən dəstək görən gənclərə müraciətlə dəfələrlə çıxış etmişdir. Şeyx belə hərəkəti qınamış və bunu günah saymışdır. O, gənclərə müraciətində deyirdi: «Unutmayın, öz borcunuzu yerinə yetirməklə siz həm də ana və bacılarınızın namusunu qoruyursunuz. Dövlətin müstəqilliyini bundan başqa daha necə qorumaq olar ki?! Nə vaxta qədər yuxuya dalacaqsınız, dərs almaq vaxtıdır!».

Əvvəllər uşaqların doğulması bir çox hallarda heç bir sənəddə qeyd olunmurdu. Şeyx doğulan körpələrin qeydiyyatına, onlara doğum haqqında müvafiq sənədin verilməsinə xüsusi diqqət yetirmişdir. Hətta bu qaydalara riayət etməyən valideynlərin cəzalandırılması barədə xüsusi layihə də hazırlamışdır. Ümumiyyətlə, ictimai həyatın elə bir sahəsi olnayıb ki, şeyx ona öz mövqeyini bildirməsin və ya istiqamət göstərməsin.

### İRAQ XATİRƏLƏRİ

Təhsil illəri haqqında təəssüratlarını şeyx son günlərinədək qoruyub saxlamışdı. «Universitetdə böyük kitabxana olub, — deyə böyük nəvəsi Kamala danışırdı, — bilirsən orada nə qədər yaxşı kitablar saxlanılıb, hamısı da dəri cildlikdə, yazıları isə qızılı qabarıq naxışla, rəflərə səliqə ilə düzülmüş şəkildə. Onları oxumaq üçün insanlar hətta Avropadan gəliblər, çünki öz ölkələrinin tarixi haqqında bilmədiklərini bu kitablardan öyrəniblər. VIII — IX əsrlərdə yazılmış bu kitablarda Peyğəmbərimizin (s) həyatı haqqında da çoxlu səhih hədislər yer alıb və bunlar ilk mənbədir».

Şeyx nəvəsinə universitetdə fəaliyyət göstərən ustaxana haqqında da söhbət açırdı, burada xəttatlar kitabların surətini arzu edənlər üçün gözəl xətlə köçürürdülər. Şeyx özü də İraqdan ərəb dilində xeyli qiymətli kitab gətirmişdi, lakin onun zəngin kitabxanası təkcə dini ədəbiyyatlardan ibarət deyildi.

1920-ci ildə şeyxin evinə yeni hakimiyyətin nümayəndələri (iki əsgər və bir mülki şəxs) gəlir və onlardan birinin əlində mauzer silahı olur. Onlar bütün otaqları yoxladıqdan sonra kabinetə daxil olurlar. Divarın birinin tavana qədər kitab rəfləri ilə dolduğunu görən mauzerli soruşur:

- Molla, bunlar nəyinə gərəkdir?

- Mən molla deyiləm, axundam, — Əlizadə cavab verir. — Universitet bitirmişəm, təhsil almışam, bu kitabları isə oxuyuram.

- Burada Marksın, Hegelin kitabları var, bəs onlar nəyə lazımdır?

- Onlar da maraqlıdır, mən onları da oxuyuram.

1953-cü ildə gətirilən kitabların arasında həcminə görə çox qalın «Şərqin tarixi» adlı kitab və Azərbaycan dilinə, demək olar ki, tərcüməsi başa çatmış Qurani—kərim oğurlanır. Oğru sonralar kitabı dərc edərək professor elmi dərəcəsini alır. Kamal müəllim bu adamı yaxşı tanısa da, adını çəkmir. «Amma tez—tez babamın yanına gələrək onunla söhbət edərdi», — deyir.

### KİTABXANAYA ARTIQ YAZILMAQ VAXTIDIR

Şeyx Ağa Əlizadə övladlarının təlim—tərbiyəsinə böyük önəm verib. Təsadüfi deyil ki, onun varisləri — övladları və nəvələri özlərini əsasən elmə həsr edərək Respublikada məşhurlaşıblar. Onların taleyi ayrıca mövzudur. Lakin düşünürəm ki, şeyxin böyük nəvəsinin timsalında onun övladlarının təhsilinə nə qədər ciddi yanaşdığını, onları mütaliəyə cəlb etməyə, bilik almağa həvəsləndirməyə çalışdığını göstərmək olar. Nəvələrin təhsili hər zaman şeyxin diqqət mərkəzində olmuşdur. Hansı məktəbə — Azərbaycan və ya rus bölməsində oxumağa gəldikdə isə şeyx söyləyir ki, uşaqların Azərbaycan məktəbində oxumasını məsləhət görərdi, ancaq mütləq rus dilini öyrənməlidirlər, çünki bu dilin Azərbaycanda mühüm dil olduğunu anlayırdı. «Atamla dayım bu barədə razılaşırlar», — Kamal müəllim xatırlayır.

Şeyxin bütün nəvələri ali təhsili rus dilində alıblar. Əvvəlcə Kamalı ən böyük nəvə kimi Azərbaycan məktəbinə verirlər, lakin 4-cü sinifdən o rus məktəbində oxumağa başlayır. Kamal müəllim deyir: «Çox çətin idi, çünki Azərbaycan bölməsində rus dili tədris olunmurdu və mən cəmi 30 söz bilirdim. Məni tanışlıqla qəbul etdilər. Atamın iş yoldaşının xanımı istedadlı pedaqoq Sofya Vasilyevna Avdotina 28 nömrəli məktəbin direktoru idi. Elə o, mənimlə məşğul olmağa razılaşdı. Artıq iki ildən sonra sinfimizdəki rus şagirdlər mənə suallarla yaxınlaşırdılar: «Kamal, bax gör vergülü düz qoymuşam?». Buraxılış imtahanında sərbəst mövzu üzrə inşa yazısından «beş» aldım».

1937-ci ildə Kamalın atasını — müxtəlif illərdə Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin doqquz qızıl medalına layiq görülmüş üzümçülük sovxozunun direktorunu Şamaxıya uzun müddətli ezamiyyətə göndərirlər. 10 yaşlı Kamal tamamilə babanın öhdəsində qalır. «Artıq mənim nağıllarım sənə bəs eləməz — kitabxanaya yazılmaq, kitab oxumaq vaxtıdır», — deyə baba qərar verir.

«Mənim Vitya adlı çox yaxşı dostum vardı, hətta indi də onu yuxuda görürəm. Biz dərsdən sonra birlikdə kitabxanaya getməyə başladıq, — Kamal Babayev söyləyir. — Əvvəlcə evə gedib nahar edir, sonra kitabların yanına qaçırdıq. Korolenko adına kitabxanada saatlarla otururduq, hələ kitablardan evə də gətirirdik. Bu, bir neçə il davam etdi, bir gün kitabxanaçı Sofya Markovna dedi: «Uşaqlar, bütün kitabları artıq oxumusunuz, bizdə sizin üçün yeni bir şey yoxdur». O, bizə V.İ.Lenin adına kitabxanaya yazılmağı məsləhət gördü. Biz orada Jül Vernin, Fenimor Kuperin,

Cek Londonun və başqalarının olan bütün nüsxələrini oxuduq. Babam məndən nə oxuduğumuzu soruşurdu. Onu monqolların Qafqaza hücumu, ərəblərin torpağımıza gəlişi maraqlandırırdı. Bütün bunlar haqqında o, Bağdadda oxumuşdu. Ona Mayn Riddən danışanda məni danlayırdı ki, mən bu yazıçını çox oxuyuram: «Hindular nəyinə gərəkdi?» — soruşurdu. Ona Jül Vernin qəhrəmanları kapitan Nemo, onun sualtı gəmisi haqqında ətraflı danışırdım. «Fateh Robur» kitabı ilə, oradakı vertolyotla, yazıçının digər kitablarında təsvir olunan öncə görmələri, onun müxtəlif elm sahələrindəki möhtəşəm biliklərlə çox maraqlanırdı.

«Babamda məni valeh edən xüsusiyyət çox savadlı olması idi», — bu sözləri AMEA—nın vitse prezidenti (2011-ci il), Geologiya və Geofizika İnstitutunun direktoru, şeyxin nəvəsi akademik Akif Əlizadə deyir.

– Onun əvvəlcə Nəcəfdə, sonra isə Məşhəddə aldığı dini təhsil ənənəvi dini təhsildən öz fundamentallığı ilə fərqlənirdi. Çünki təkcə dini hüquq və ya qanunları deyil, təbiət elmləri, tarixi və digər sahələrdə öz fikirlərini dinləyiciyə aydın şəkildə izah edə bilməyi və çatdırmaq qabiliyyətini də öyrənirdi. Yadımdadır, babamın attestatında ritorikadan qiyməti «beş» idi. Təəssüf ki, hazırkı ali təhsil müəssisələrində bu fənnin bir vaxtlar mövcud olması tamamilə unudulub. Bir də onda xoşuma gələn cəhət məişət işlərindəki dəqiqlik və işdə onu əhatə edən hər şeyə ciddi yanaşması idi. O hər şeyin dəqiq siyahısını tutardı, hər əşyanın öz yerini dəqiqləşdirərdi. Hesab edirdi ki, düzgün qoyulmayan nöqtə-vergül mətnin məzmununu təhrif edə bilər. Həyatı boyunca hər şeyə ciddiyyətlə yanaşardı — insanlara, övladlarına, nəvələrinə münasibətdə də bu ciddiyyəti hiss olunurdu. Bizə insanlara hörmətlə yanaşmağı öyrədərdi. Onda heyran olduğum bir xüsusiyyət də öz gününü, vaxtını rasional olaraq istifadə etməsi idi, bu isə onun tibb üzrə ərəb traktatlarını bilməsindən irəli gəlirdi.

### MİRCƏFƏR BAĞIROVLA GÖRÜŞ

Bu, 1943-cü ilin sonu, 1944-cü ilin əvvəllərində baş vermişdi. Mircəfər Bağırov şeyx Əlizadəni gözlənilmədən yanına çağırır. Həmin zamanlarda o indiki İncəsənət Muzeyinin binasında yaşayır və işləyirdi. Mənə danışmışdılar ki, babam kabinetə daxil olan kimi Bağırov yerindən qalxıb onu qarşılayır, əlini sıxır və oturmağa yer göstərir, — Bunu Kamal müəllim xatırlayır. Bağırov şeyxə deyir ki, Moskvadan kilsə və məscidlərin açılmasına dair göstəriş alınıb. Şeyxdən də xahiş edir ki, hansı məscidin təmirə ehtiyacı olduğunu, hansının ilk növbədə insanların ibadəti üçün istifadəyə verilməsi barədə fikrini bildirsin.

**Ardı səh.11-də**

# ELMİ SEVƏN ŞEYX HAQQINDA

*Azərbaycan Respublikasının ilk şeyxülislamı Ağa Əlizadənin 155 illiyi münasibətilə*

Babam, əlbəttə ki, birinci növbədə Təzəpirin, sonra Bakıdakı Göy məscidin, daha sonra isə Şamaxı məscidinin adını çəkir. Müsəlmanlar İdarəsini müvəqqəti olaraq şeyxin öz evində yerləşdirmək qərara alınır, elə burada sünni nümayəndəsi də qəbul keçirirdi.

1944-cü ildə məscidlər bir—birinin ardınca açılmağa başlayır. Şeyx burada xidmət etmək üçün təmiz, vicdanlı adamları seçməyə çalışırdı. Elə adamları ki, məqsədi cibini doldurmaq olmasın, islamın əsaslarını yaxşı bilsin. Bağırovun qərarına görə, Şamaxı, Gəncə və digər rayon məscidlərində xidmət göstərmək üçün yerli əhali arasından adamlar seçilir.

Kamal Babayev bu hadisələrin nəinki şahidi olmuş, eləcə də babasının yaxın köməkçisi kimi mühasibat işləri və tələb olunan dövlət statistika məlumatlarının qeydə alınması ilə məşğul olmuşdur. Məsələn, Abşeronun bütün məscidlərindən məscidlərə gələn uşaq, qadın və yaşlıların sayı barədə şeyxə məlumat daxil olurdu. Baba bu işi yalnız nəvəsinə həvalə edirdi.

«Babam hərdən soruşurdu ki, neçə uşaq yazmışam. Cavab verirdim, məsələn, səkkiz yüz. Bəs qocalar? Cavabım — 2000. Belədə babam fikrə gedir və sonra deyirdi: «Uşaqların sayını azaltmaq lazımdır, dövlət nə deyər? Biz uşaqları məktəbdən ayırırıq? Qocalar isə qoy gəlsinlər, onlar bu inancı məktəbdə keçiblər».

Bir gün məktəbdən gələndə babamın kabinetinin qarşısında 20 nəfərə yaxın adam gördüm. İçəri daxil oldum və ondan soruşdum ki, bu adamlar kimdir. Şeyx nəvəsinə başa salırdı ki, məscidlərə minarədən azan oxumaq üçün gözəl avazı olanlar tələb olunur və bu adamlar bir növ müsabiqədən keçməyə gəliblər.

Bu gün şeyx Əlizadədən onun ətrafında yeni reallıqlar baş verən zaman nə düşündüklərini soruşa bilmirik. Düzdür, oğulları (daha sonra nəvələri) yaxşı təhsil almışdılar: böyük oğlu Ağamehdi həkim, kiçiyi Məmmədağa veterinar idi. Lakin 30-cu, xüsusilə, 40-cı illərdə onun yanına müxtəlif şikayətlərlə, pis xəbər və ya məsləhət, çətin vəziyyətlərdən çıxış yolu tapmaq məqsədilə, inancla bağlı çox sayda adam gəlirdi.

Belə günlərdən birində qonşu qadın gəlir. Dolanmaq üçün o tum satmağa məcbur idi və bir gün milis gəlir, onun kiçik piştaxtasını təpiklə vurub aşırır, məhsulunu satmağı qadağan edir. «Ağa, nə edim?», — qadın soruşur. Şeyx izah edir ki, milislə çəkişməyin mənası yoxdur. «Sat. amma küçədə yox, evdə», — deyə məsləhət görür. Qadın məsləhətə qulaq asır və biz hamımız onun evinə gələrək tum alırdıq. «O, tumu çox dadlı qovururdu və bizdən başqa da bir xeyli müştəri olurdu, — deyə Kamal müəllim xatırlayır. — Digər 80 yaşlı qonşu göz yaşları içində belə deyirdi: «Ağa! Mən o dünyada nə cavab verəcəyəm? Ramazan ayında oruc tuta bilmirəm, gücüm yoxdur, yeməsəm də gücüm qalmır. Yəqin Allah məni bağışlamayacaq?» Şeyx onu sakitləşdirir: «Ay Gülbacı xanım, Allahımız mərhəmət sahibidir, hamını görür, hamını istəyir, sənin zəifliyini də bilir. Allah özü icazə verir ki, kimin gücü çatmırsa, o, oruc tutmasın. Əgər oruca görə zəifləsən, deməli, bizim dinimiz mükəmməl deyil. Allah heç bir yerdə demir ki, insanları incitmək lazımdır, əksinə, sən bütün ömrün boyu nə lazımdır etmisən, indi isə yeyib güc yığmalısan ki, alnında yazılan yaşa qədər yaşayasan». Qadın üzündə təbəssüm sakitcə gedir. Şeyx insanları sakitləşdirə bilirdi, şübhəsiz, onun indi deyildiyi kimi, müsbət aurası var idi.

Kamal müəllim təsdiq edir ki, o, uşaq vaxtı xəstələndiyi zaman babası gələn kimi xəstəlik yoxa çıxırdı, yataqdan qalxırdı. Bir də xatırlayır ki, babası cəbhəyə gedən kiçik oğluna xeyir—dua verib onun başı üstündə Qurani-kərimi tutaraq dua pıçıldayır və əminliklə deyir: «Get, Məmmədağa, qorxma, sən qələbə ilə qayıdacaqsan». 1945-ci ildə oğlu müharibədən sağ-salamat qayıdır.Mən özüm də babama çoxlu sual verirdim, — Kamal müəllim qeyd edir. — Məktəbdə bizə Allahın olmadığını deyirdilər, evdə isə əksinə. Müharibə illərində məktəbdə alman faşistlərinin qoyub qaçdığı şəhərləri xəritədə qeyd edirdik, bunun üçün hər gün radioya qulaq asmalı idim, anam isə Məhərrəm ayında radionu qoşmağa icazə vermirdi. Mən babamın yanına gedib bu qadağa haqqında danışdım. «Nə üçün radioya qulaq asmalısan?», — babam soruşdu. Mən izah etdim. O, fikrə getdi, otaqda gəzişdi, dayandı və dedi: «Bilirsən, sən düz deyirsən, sinif yoldaşlarını yarı yolda qoymaq yaxşı hərəkət deyil, əksinə, hətta gecə də radioya qulaq as, amma musiqi veriləndə söndür, çünki Məhərrəm ayında bizə əziz olan insanları itirmişik, onlara hər zaman matəm saxlamalıyıq». Yadımdadır, atam həmin qorxulu 30-cu illərdə babanın yanına gəldi və dedi: «Sən bizim hamımızdan böyüksən, de görək Novruz bayramını qeyd edək, ya yox?». Babam bir qədər fikirləşib dedi: Əgər soruşsalar, deyin ki, mən icazə vermişəm». Uzun illərdir qoyulan qadağaya baxmayaraq, bizə kiçik siniflərdə şirniyyatla qoz-fındıq verir, pərdələri örtüb şam yandırır və tapşırırdılar ki, məktəbdə bu barədə danışmayaq. Belə bir hadisəni xatırlayıram: gecə saat 3—də anam hazırladığı paxlavanı yumru soba tavasına yığdı ki, qonşu evə aparsın. Orada primitiv soba var idi və nəyə görəsə bütün qonşular bayram şirniyyatını həmin evdə bişirirdilər. Anam qonşularla sözləşdiyi kimi işarə gözləyirdi. Hə, budur, həyət tərəfdən kimsə pıçıltı ilə çağırır: «Raziyə xanım, gətirin, gətirin». Anam qapını açıb küçəyə çıxır ki, qonşunun həyətinə girsin. Babam buna belə yanaşırdı: «Əsas odur ki, əməlimiz yayılmasın və məcbur edilməyək». Soruşanda ki, nəyə görə bizə məktəbdə deyirlər bu adətlər çox pisdir, sənsə deyirsən yaxşıdır. «Sən böyüyəndə izah edərəm», — şeyx cavab verirdi.

«Allah mənim babamı dərin zəka ilə mükafatlandırmışdı və mənə elə gəlir ki, məhz buna görə o, ölkədə qatı ateizm hökm sürən vaxtlarda özünü qoruya bilmişdi, -Akif Əlizadə bildirir. — Onu bir neçə dəfə sorğu—sual etmişdilər, lakin hər dəfə sağ-salamat qayıdırdı. Amma küçədə nadir hallarda görünürdü, adının hallanmasını istəmirdi. Buna baxmayaraq, insanlar ona hörmətlə yanaşır, gələndə geri çəkilərək yol verir və hörmətlə «Salam, Ağa» — deyə salamlayırdılar».

«Şeyx uca qaməti, gözəl yerişi və nurlu siması ilə diqqəti cəlb edərdi», — digər nəvəsi Kamal Babayev qeyd edir.

Professor Vasim Məmmədəliyev şeyx Ağa Əlizadə haqqında İslamın bütün tələblərinə uyğun şəkildə yaşayan, həyatının hər bir səhəsində şəriətə əməl edən yüksək təhsilli ruhani xadimlərdən biri kimi danışır. Ona uşaq vaxtı Bakıda, ətraf kəndlərdəki məscidlərdə şeyxin bir neçə xütbəsini dinləmək xoşbəxtliyi nəsib olmuş və şeyxin alicənab surəti, səsi, yüksək səviyyəli natiqlik istedadı bu günə qədər xatirəsində qalmışdı. O, əsasən, elmi söhbətlər aparırdı və bu söhbətlərdə onun təkcə dini deyil, müasir elm sahələri haqqında bilikləri də əks olunurdu, — deyə o, xatırlayır.



Şeyx onları incə şəkildə müqayisə edir, Quran ayələri və peyğəmbərin hədislərinin işığında təhlilini apararaq onların gizli mahiyyətini və yaxın əlaqəsini göstərirdi. Bu elə maraqlı idi ki, camaat gözünü qırpmadan dinləyirdi. Ölkədə qatı ateizmin hökm sürdüyü illərdə şeyx Ağa Əlizadə İslam dəyərlərini üstüörtülü şəkildə təbliğ etməyi bacarırdı, və bu işdə onun rolu danılmazdır. Yadımdadır, şeyxin Moskvada konqresslərdən birində sensasion çıxışı haqqında Bakıda səs—küy yayılmışdı. O, konqress iştirakçılarına rus dilində müraciət edərək dünyanın hər yerindən gələn insanların ürəyincə olan sözləri dilə gətirmişdi. Beləliklə, emosiya dalğası yaratmışdı. Şeyxin diqqətçəkən cəhətlərindən biri də güclü məntiqi idi. Təəssüf ki, şeyxin nitqlərinin yazısı qorunub saxlanmayıb, onlar tələbələrin təhsilinə yaxşı kömək ola bilərdi».

### ŞEYXİN İRAN SƏFƏRİ

1945-ci ilin mayında Şeyx Əlizadəni İrana dəvət edirlər. Kamal Babayevin rəhbəri, İncəsənət Muzeyinin keçmiş direktoru, Azərbaycanın Xalq rəssamı Kazım Kazımzadə bu barədə belə danışır: «Mən Təbrizə göndərilmişdim, orada cəbhədəki hadisələr, sovet Azərbaycanındakı vəziyyət haqqında söhbətlər açdığımız «Yeni yol» adlı qəzet buraxırdıq. Bir gün bizə belə bir söz çatdı ki, tezliklə Təbrizə Azərbaycandan şeyxülislam gələcək. Bəzilərinə bu çox maraqlı gəldi, çox təəccüblənən də oldu: sovet dövlətində Allahın varlığı inkar edilir, hansı şeyxdən söhbət gedə bilər? Yəqin onun heç biliyi yoxdur.

Məsciddə şeyxin ilk xütbəsinə yığılanların sayı çox olsa da, boş yerlər də görünürdü. Şeyx xütbəni bitirəndə isə məsciddə adam əlindən tərpənmək olmur. «Sovet şeyxinin biliyini yoxlamaq üçün ona xeyli sual verilir. Əsasən İslamda qadının işləyib-işləməməsinə münasibət barədə suallar eşidilir. Şeyx əvvəl «Bəqərə» surəsini ərəb dilində səsləndirir, sonra dərhal fars dilinə tərcümə edir. Ona gözlərini qırpmadan qulaq asırlar. Sonda ətrafdakılara müraciət edir: «Məni yaxşı eşidirsiz? Quranda qadının işləməli olduğunu bildirən bir cümləyə rast gəlmisiz? Bu barədə heç bir yazı yoxdur. Amma Quran deyir ki, insan doğulandan qəbrə qədər oxumalı, öyrənməlidir — qadın ya kişi fərqi yoxdur, yəni insan bir şeylə məşğul olmalıdır». Bu sözlərdən sonra şeyxə yaxınlaşmaq çətinləşir. O daim insanların əhatəsində olur.

Həmin illərdə Təbrizdə çalışan Azərbaycanın Xalq yazıçısı Qılman İlkin xatırlayır: «Bizə xəbər verdilər ki, şeyxülislam gəlir və onu ciddi şəkildə qorumaq lazımdır, çünki ona sui—qəsd ola bilər. Biz onu qarşıladıq və yanından bir an belə ayrılmadıq. Şeyx məscidlərdə çıxış edir, küçələrdə insanlarla görüşürdü. Təbrizdə onu qarşılamağa bütün əhali çıxmışdı. Onun qarşısında qurbanlar kəsilirdi. Təbrizdə tez—tez jurnalistlərlə görüşür, onların suallarını cavablandırırdı. İran ruhaniləri arasında elələri tapılırdı ki, Sovet İttifaqından gələn şeyxin yalançı olduğunu iddia edir, casus olduğunu deyir, ilahiyyat elmindən xeyli sayda suallarla «imtahan» edirdilər. Öz dərin və dəqiq cavabları ilə Ağa Əlizadə onları yerində elə otuzdururdu ki, «imtahançılar» yaxınlaşıb onun əlini öpərək hörmətlərini, inamlarını bildirirdilər. Tez bir zamanda Azərbaycan şeyxinin şöhrəti bütün İrana yayıldı.

İran qəzetlərində bizim şeyx haqqında yaxşı rəylər dərc olunur. Mən onlardan birini — məşhur «İrane—Ma» qəzetində dərc olunanı yadda saxlamışam. Jurnalist yazırdı ki, görünüşündən sükut və nursaçılan Qafqaz şeyxi ilə görüşən zaman mənə elə gəldi ki, uzun illər axtardığım adamı tapmışam və anladım ki, «gözəl ağ çalma altından sağlam, müdrik ağıl, təmiz, qara geyim arxasında isə böyük ürək döyünür». Mənə elə gəlir ki, bu, Şeyx Əlizadə şəxsiyyətinin ən dəqiq təsviridir.

### GÖZLƏNİLMƏZ GÖRÜŞ

Bu görüş hamamda baş verir. Şeyx başını yuyarkən üzərində baxışlar hiss edir. Başını çevirdikdə buxar topalarının arxasından kiminsə diqqətlə ona baxdığını görür. Bir qədər baxdıqdan sonra o doğma cizgiləri tanıyır — bu onun doğma dayısı Mirzə Xaliq idi. Yanında Daxili İşlər Xalq Komissarlığı (DİXK) nümayəndələrindən kiminsə ola biləcəyini zənn edən şeyx yüngülcə başını tərpədir. Həmin adam da o cür edir. Görüşmək üçün heç biri yerindən tərpənmir. Şeyx tez yuyunub hamamdan çıxır.

«Uzun illərdən sonra babam bizə danışırdı: — Mehmanxanadakı otağıma qayıtdıqdan sonra qapını bağlayıb uzun—uzadı ağladım». Onu yandıran o idi ki, öz doğmasıyla iki kəlmə söz danışa bilməmişdi, — Kamal müəllim xatırlayır. — Bu söhbətdən bir neçə gün sonra babamı DİXK—na çağırıb irad bildirirlər: hər şey haqqında danışmaq olmaz, bunu nahaq etdiniz». Biz hamımız şokda idik, otaqda heç kim yox idi, yalnız divarın o biri tərəfindəki qonşu eşidə bilərdi.

Mirzə Xaliq Azərbaycandan hələ 20-ci illərdə, əvvəl Türkiyəyə, sonra isə İrana getmişdi. O, Azərbaycanın sovetləşmə fəsadlarını dərhal başa düşmüşdü. «Hiss edirəm ki, getməliyəm», — o aralarındakı yaş fərqi o qədər də çox olmayan bacısı oğluna deyirdi. Onlar uzun—uzadı söhbət edirdilər. Sovet hakimiyyəti dövründə xaricdə yaşayan qohumlarla yazışmaq qadağan idi və İrandan gələn olduqda Mirzə Xaliqi gördüyünü, onun salam söylədiyini deyirdi. Şeyx cavabında susurdu.

O, atama deyirdi: «Uşaqlara görə ehtiyatlı olmaq lazımdır, məni tutsalar, sizin hamınızı həbs edəcəklər». Həmişə bu barədə düşünürdü,»— Kamal Babayev xatırlayır.

### ŞEYXİN VƏFATI

Ölümündən bir neçə il əvvəl şeyx dəhşətli bir faciə yaşayır: 1947—ci ilin mayında ürək tutmasından oğlu, həm də yaxın dostu Ağamehdi qəfildən dünyasını dəyişir. Şeyx yaxınlarına deyirdi ki, bu ölüm ona ağır zərbə vurdu. O, fikir edirdi ki, oğlu öz uşaqlarının toyunu görmədi, ona görə də nəvələrini boya—başa çardırmağı, onların hərtərəfli inkişafını təmin etməyi özünə borc bilirdi.

1953-cü ildə Vyanadakı qurultaydan qayıdan şeyx ağır xəstələnərək yatağa düşür. 1954-cü il dekabrın 16-da 83 yaşında vəfat edir. Dəfn mərasimi ona doğma olan Təzəpir məscidində keçirilir. Şeyxi son mənzilə yola salmaq üçün Orta Asiya, Qazaxıstan, Dağıstan, Gürcüstan, Ermənistan Müsəlmanlarının Ruhani İdarələrinin nümayəndələri, eləcə də pravoslav, erməni kilsələri və xristian—baptist nümayəndələri də gəlmişdilər.

Təsadüfən oraya rəssam Kamil Xanlarov gəlib çıxır. Kimin dəfn olunduğunu bildikdə çox kədərlənir. O, şeyx ilə yaxından tanış idi. O qədər cavan olmasa da, hündür hasara çıxır və matəm mərasimini, şeyxi son mənzilə yola salan adamların eskizlərini (təsvirləri) çəkməyə başlayır. Bu işlər indi də qorunur.

Şeyx Ağa Əlizadə ölümündən əvvəl oğlanlarına və qızına deyirdi ki, şəriətə görə insan öz torpağında dəfn olunmalı və başdaşı da bu torpadan olmalıdır. Qəbir çox yüksək olmamalıdır ki, tədricən itsin. Bunları yadda saxlayan və atalarının Abşeronda doğulduğunu nəzərə alan övladları onu köhnə Bakı qəbiristanlığında dəfn edib başdaşını adi Abşeron daşından qoyublar. Sonralar qohumlar şeyxin yüksək ruhani rütbəsini nəzərə alaraq başdaşını nazik mərmərlə sadə şəkildə bəzəyibrlər.

*Çapa hazırladı*
***Şirməmməd NƏZƏRLİ.***